MUSİQİ DÜNYASI 4/89 2021

# AZƏRBAYCAN MUSİQİ SƏNƏTİNDƏ NİZAMİ DÜHASI

Nəzakət TEYMUROVA

*"Bütün Azərbaycan xalqı Nizami Gəncəvi ilə fəxr edir... O bu torpaqda yaşayıbdır, bu torpaqda yazıbdır. Onun yazdığı əsərlər bütün dünyada məşhurdur. Təsəvvür edin, 850 il bundan öncə bu qədər böyük əsərlər yaratmaq!.. Bu əsərlər təkcə şeirdən ibarət deyildir, onların hər birində böyük elm var, böyük fəlsəfə var, dahi fikirlər var. Buna görə onun əsərləri də yaşayır, özü də yaşayır".*

***Heydər Əliyev***

Azərbaycan Respublikasının Ali Baş Komandanı, Prezident İlham Əliyev ölkəmizdə 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Sərəncam imzalamışdır. Sərəncamda deyilir: "2021-ci ildə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi tamam olur. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qüdrətli söz və fikir ustadının insanları daima əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığının bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyətini nəzərə alaraq qərara alıram:

1. 2021-ci il Azərbaycan Respublikasında "Nizami Gəncəvi İli" elan edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Nizami Gəncəvi İli" ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin". [10]

Azərbaycanın klassik bəstəkarları - Ü. Hacıbəyli, Q.Qarayev, Ə. Bədəlbəyli, F.Əmirov, S. Hacıbəyov və digərləri Nizami Gəncəvi yaradıcılığına müraciət etmişlər. Əslində, Nizami Gəncəvinin sözlərinə dahi Üzeyir Hacıbəylinin yazdığı "Sənsiz" və "Sevgili canan" qəzəl-romanslarının fəlsəfəsi kifayət edər ki, dünya şöhrətli şairin əzəmətini vəsf etsin. Səbəb isə Nizaminin söz ehtiyatının tükənməzliyi, onun qəzəllərinin ahəngi, kəlmələrində sait səslərin bol olması, bir sözlə onun nəzminin musiqi dilinə yaxın olması ilə səciyyələndirilir. Qara Qarayevin "Yeddi gözəl" baleti və "Leyli və Məcnun" simfonik poeması hər bir azərbaycanlının qürurla izlədiyi əsərlərdir.

Nizami Gəncəvinin yaradıcılığında musiqi önəmli yer tutur. Çünki ancaq musiqi, mahnı, çalğı və rəqs insanların daxili aləmindən gələn hissləri əks etdirə bilir. Onun əsərlərində şərq musiqi alətlərinin təsviri, təşbehi ön plana çəkilir. Nizami musiqini eşqdən ayırmır, onları eyniləşdirir. Eşqdən danışanda həmişə musiqi eşidilir, çalğıçılar iştirak edir.

Şərab düzdülər, çəng də kökləndi,
Rudlar çalınmağa başladı [8, s.144].

Sevgililər qovuşanda isə şair belə deyir:

Hər ikimiz bir-birimizə qovuşmuşuq
Necə ki zillə bəm qovuşar.
Çəngi (çalğıçı) çəngə mizrab (zəhmə) çəkəndə,
Ahəngi zil və bəmsiz olmaz [8, s.230]

Nizami onları sazın xoş avazlı ipək tellərinə bənzədir:

O iki xoş avaz ipək teldən
Çoxlarının sazında saz teli oldu [7,s. 94].

Təsadüfi deyildir ki, dahi Nizami Gəncəvi haqqında dünya şöhrətli tanınmışlar dəyərli sözlər demişlər.

Yazıçı- mütəfəkkir, tarixçi, tərcüməçi Abasqulu ağa Bakıxanov demişdir: "İnsanın qəlbini təlatümə gətirən Nizami lirikası, dünya şöhrəti qazanan "Xəmsə" şairin mənəvi dünyasına misilsiz nümunədir, öyrənilməsi

zəruri olan zəngin bədii xəzinədir. Bütün şairlər onun ustalığını etiraf etmişdir".

" İnsana məhəbbət hissi Nizaminin əsərlərində dahiyanə ifadə olunmuşdur" - bu fikri isə dahi alman şairi, filosofu, dövlət xadimi Yohan Volfqanq Höte söyləmişdir.

Tanınmış Rusiya şairi, nasiri və ictimai xadimi Nikolay Tixonov demişdir: "Aydındır ki, Nizami farsca yazıb. Azərbaycan xalqının düşmənləri olan burjua tarixçiləri, İran millətçiləri tərəfindən Nizaminin fars şairi kimi qələmə verilməsi və onun vətəni Azərbaycanla əlaqəsinin olmaması fikri yeni deyil. Ancaq bu həyasız yalan heç kimi aldada bilmədi".

Tanınmış İsveç şərqşünası, ədəbiyyatşünas-alimi Rudolf Qelpne Nizami Gəncəvi haqqında deyirdi: "Nizami elə uzaqgörən şəxsiyyət olmuşdur ki, onun yaradıcılıq gəmisi başlanğıcı və sonu olmayan "insan qəlbi" adlı yeganə dənizdə adadan-adaya üzür".[4]

Dünyanın görkəmli şəxsiyyətlərinin Nizami haqqında söylədikləri fikirlər yüzlərlədir.

Bəlli olduğu kimi, ümummilli lider Heydər Əliyev Nizami Gəncəvinin böyük türk aləmində, bütövlükdə dünya miqyasında olan şöhrətinə, onun ölməz ədəbi irsinin təbliğinə xüsusi önəm verirdi. Müxtəlif vaxtlarda yubileylərin keçirilməsi, ədəbi irsin öyrənilməsi, əsərlərin kütləvi nəşri barədə sərəncamlar imzalanmış, ədəbi ictimaiyyətin diqqətini xalqımızın bu müdrik oğlunun şəxsiyyətinə, sənət aləminə daha yaxından cəlb etmişdir. Ulu öndər Heydər Əliyevin varisi Prezident İlham Əliyev bu müdrik siyasi kursu uğurla davam etdirərək Nizami Gəncəvi irsinin təbliğinə həmişə böyük həssaslıqla yanaşmışdır. 10 il öncə dövlət başçısı İlham Əliyev 2011-ci ildə "Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında" sərəncam imzaladı. Nizami Gəncəvinin 870 illik yubileyi münasibətilə ucaldılan məqbərəni əhatə edən 35 hektar ərazi başdan-başa abadlaşdırıldı. Üzərindən illər keçdi, yenidən Prezidentimiz belə bir sərəncam imzaladı. 2021 -ci il - "Nizami ili" adlandırıldı! "Nizami Gəncəvi ümumbəşəri mahiyyət daşıyan, ecazkar poetik qüvvəyə malik yaradıcılığı ilə Şərq bədii təfəkkürünü elmi-fəlsəfi fikirlərlə zənginləşdirmiş və şeiriyyəti görünməmiş yüksəkliklərə qaldırmışdır. Mütəfəkkir şairin məşhur "Xəmsə"si insanlığın mənəvi sərvətlər axtarışının zirvəsində dayanaraq dünya ədəbiyyatının şah əsərləri sırasında layiqli yer tutur" - bu sözlər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə aiddir.

Azərbaycanın tanınmış musiqişünas alimi, professor Səadət Abdullayevanın "Nizamidə musiqi, musiqidə Nizami" əsərində Nizami Gəncəvinin yaradıcılığının musiqi ilə vəhdəti nəzərdən keçirilir. Kitabda Nizaminin yaradıcılığı və həyatı əsasında bəstəkarların opera, balet, simfoniya, vokal-instrumental, vokal və instrumental janrlarında yazdıqları əsərlərin səhnə tarixi, quruluşu, məzmunu, musiqisinin əsas cəhətləri, yaradıcı heyətin tərkibi açıqlanır, opera və balet tamaşalarında iştirak edən sənətçilərin soyadları, eləcə də nəşr olunan not yazıları göstərilir. Şairin həyatını və poemalarının süjetlərini əks etdirən dram tamaşaların və filmlərin müəllifləri, iştirakçıları, məzmunu və müşayiət edən musiqilər haqqında məlumat verilir.

Nizami Gəncəvi "Xosrov və Şirin", "Yeddi gözəl" və "İskəndərnamə" poemalarında qədim Midiya dövləti ərazisində yaşayan (e.ə. 728-549-cu illər) atəşpərəstlərin kahini olan muğun (müğ, qədim fars dilində maqu) adını çəkir. Muğlar atəşgahda xoş ətir verən alov ətrafında [6, 216] dini nəğmələr oxuyub ritual rəqs edərkən, ekstaza gəlib xirqələrini (əbaları- nı) yandırırdılar [9, 120]. Şair onların adət-ənənələrini açıqlayır: muğlar pirinin əlindəki meyi, onun oğlundan başqa heç kəsə vermirdilər [9, 83]. Şair quşun füsunkar uçuşunu muğların atəş ətrafında dövrə vurmasına bənzədir [5, 74].

Nizaminin poemalarında dini ayinlərlə əlaqədar musiqi anlayışları peyğəmbərlərin (Musa, Davud, Zərdüşt, İsa), mələklərin (Cəbrayıl, İsrafi l, Harut), əfsanəvi şəxslərin (Zöhrə, Dəccal), dini kitabın (Zənd) adları ilə yanaşı çəkilir. Kamançanın iniltili səsini Musa peyğəmbərin allahdan onu seyr etməyə icazə verməK üçün yalvarışına bənzədir [1, 170].

Nizaminin təsvir etdiyi musiqili səhnələrdə çalğıçılar başlıca rol oynayırlar. Onlar təklikdə, yəni solo şəklində bərbət, çəng, ney, təbil və s. alətlərdə, ya da duet, trio, kvartet və daha çox tərkibdə saray məclislərində, xalq şənliklərində iştirak edərək, tamaşaçılara böyük zövq verirdilər. Geniş tərkibli ansambllar adətən ümumxalq bayramlarında çıxış edirdilər. Məsələn, "Yeddi gözəl" poemasında göstərildiyi kimi, dörd il sürən quraqlıq illərinin başa çatması münasibətilə keçirilən şənlikdə çalğıçılar iki fərsəng (təxminən 10-12 km) cərgədə düzülüb, bərbət, rübab və çəngi səsləndirmişlər. Müxtəlif şəhərlərdən gələn və sırasında müğənni, çalğıçı, rəqqas və hoqqabazlar olan altı min sənətçi dəstə-dəstə şəhər və kəndlərə yollanaraq xalqa sevinc bəxş emişlər [9, 94, 95].

İlk baxışda göstərilən rəqəmlər şişirdilmiş görünsə də, şair onun dövründə musiqiçi peşəsi ilə çoxlu sayda insanların məşğul olmalarına işarə edir. Qeyd etmək lazımdır ki, Nizaminin bu məlumatı real tarixi faktlara söykənir. Ədəbiyyatşünas-alim Əbu Mənsur əs-Səalibiyə (961-1038) görə, 420-438-ci illərdə Sasani hökmdarı Bəhram Gur Hindistandan 400 musiqiçi, bədii qiraətçi, rəqqas, hoqqabaz və təlxək gətirərək öz sarayında yerləşdirmişdi. Onlar ustalıq və istedadlarına uyğun bir neçə qrupa bölünmüşdülər. İran tarixçisi Həmzə əl-İsfahani (883-960/70) isə Bəhram Gurun Hindistandan 2 min xanəndə və musiqiçi çağırmasını və sonra onların bütün İran əyalətlərinə göndərilməsini göstərir [11, 28]. Nizaminin əsərlərində müəyyən hadisələrlə əlaqədar keçirilən musiqili məclislərə geniş yer verilir. Bu məclislər şah sarayında, şahların görüşü zamanı, müharibənin qələbə ilə başa çatması, qışın qurtarması və yaz mövsümünün qədəm qoyması, qeyd edildiyi kimi, quraqlığın qurtarması münasibətilə təşkil olunurdu.

Nizami dövründə aşağıda göstərilən çalğı alətlərini özündə birləşdirən trio və duetlər mövcud idi. Çəng bərbətlə birlikdə çalınanda, məclisə xüsusi rövnəq verirdi. Şair onların bir-birinə uyuşmasını belə təsvir edir:

Bərbətlə çəngin ikisinin də quş kimi nəğməsinin
Rəngli tük kimi bir-birinə uyuşdururdu [5, 276]

Nizami, Şərq mədəniyyətinin səciyyəvi məhsulu idi. O, islamaqədərki və islamdansonrakı İran, həmçinin İran və Qədim dünya arasında körpü yaratmışdır. [2]

Nizami Gəncəvi, Persiyanın periferiyası olan Qafqazda yaşayıb-yaratmasına baxmayaraq, öz yaradıcılığında bütün fars mədəniyyəti üçün ənənəvi olan vahid dil və vətəndaş fikri ənənəsinə sadiq qalmış, *"Yeddi gözəl"* poemasında isə yaşadığı məkanı *"dünyanın ürəyi"* adlandırmışdır. [3]

Beləliklə bir daha vurğulamalıyıq ki, Nizaminin musiqi ilə poeziya vəhdəti olduqca zəngindir. Musiqinin dərin daxili aləmini, onun insana etdiyi təsiri dahi şair yaradıcılığı boyu ehtiva edir və oxucunu düşünməyə vadar edir.

***Açar sözlər:*** *Nizami Gəncəvi, klassik bəstəkarlar, qəzəl, yaradıcılıq, musiqi, rəqs, poeziya, şer, "Xəmsə", mütəfəkki*

## ƏDƏBİYYAT

1. Abdullayeva S. "Nizamidən musiqiyə. musiqidən Nizamiyə" səh. 170.Bakı-2018
Chelkowski Peter J "Nezami s Iskandarnameh" Roma. səh 13.
2. Gancavi, Nizami. Haft PaykarA Medieval Persian Romance/ USA/Oxford University Press,J.S. Meisami(Editor) 1995. Səh 368
3. http://mct.gov.az/az/umumi-xeberler/13393 Azərbaycan Mədəniyyət Nazirliyi 05.01.21.
4. Nizami Gəncəvi. Xosrov və Şirin. Filoloji tərcümə Həmid Məmmədzadənindir. - Bakı: Elm, 1981. - 374 s.
5. Nizami Gəncəvi. İskəndərnamə. Şərəfnamə. Filoloji tərcümə Qəzənfər Əliyevindir. İqbalnamə. Filoloji tərcümə Vaqif Aslanovundur. - Bakı: Elm, 1983. - 650 s.
6. Nizami Gəncəvi. Leyli və Məcnun. Filoloji tərcümə Mübariz Əlizadənindir. - Bakı: Elm, 1981. - 289 s.
7. Nizami Gəncəvi. Yeddi gözəl. Filoloji tərcümə Rüstəm Əliyevindir. - Bakı: Elm, 1983. - 359 s.
8. Nizami Gəncəvi. Yeddi gözəl. Filoloji tərcümə Rüstəm Əliyevindir. - Bakı: Elm, 1983. - 359 s. 6.
9. www.айдинйол.аз. сянят порталы. (Эюркямли шяхсиййятляр Низами Эянжяви щаггында)05.02.21.
10. Борбад и художественные традиции народов Центральной и Передней Азии: история и современность / Тезисы докладов и сообщений Международного симпозиума, посвященного 1400-летию Борбада – основоположника классической системы таджикско-персидской устной традиции. 1990 г., 23-29 апреля.- Душанбе: Дониш,1990. - 486 с.

*The presented scientific article examines the work of the great Azerbaijani thinker and poet Nizami Ganjavi. Music occupies a special place in Nizami's poems. .Nizami Ganjavi has a very rich combination of music and poetry.*

*We learn about the great importance of music in the medieval society of the Nizami era from the text of Nizai's poems "Treasury of Secrets", "Khosrov and Shirin", "Leyli and Majnun", "Seven Beauties", "Iskandemame". All of them testify to the high level of the musical culture of Azerbaijan. That is why the appeal of musicologists to the works of the great Nizami is very relevant.*

*Exploring the work of Nizami in the aspect of the relationship between literature and music, I would like to especially emphasize the individuality of his artistic nature in the traditional context of the era. In his works of art, Nizami used well-known subjects that attracted his creative attention primarily by the possibilities of emotional impact.*

***Keywords:*** *Nizami Ganjavi, classical composers, ghazal, creativity, music, dance, poetry, poem, "Khamsa", thinker*